*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 287-290* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.287*

# Məhəmməd Hadi yeni kulturoloji təfəkkürdə

**Namiq Abbasov**
Kulturologiya üzrə fəlsəfə doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu
E-mail: namiq_abbasov_70@mail.ru

**Annotasiya.** Məqalədə Azərbaycanın müstəqilliyi və xalqın azadlığı ideyalarını rəhbər tutmuş fədakar vətənpərvər şair Məhəmməd Hadinin yaradıcılığı yeni kulturoloji təfəkkürdə araşdırılır. Kulturologiyada mədəni insan formulu kimi göstərilən bilik, bacarıq, mütəşəkkillik və yaradıcı fəaliyyət göstəricilərinin Məhəmməd Hadi nümunəsində şərhi verilir. Böyük vətənpərvər şairin insani keyfiyyətləri kulturoloji təhlil baxımından dəyərləndirilir. Belə ki, şairin insani keyfiyyətlərinin yaradıcılığından heç də geri qalmadığı vurğulanır. Şairin mədəni bir insan kimi şəxsi və yaradıcı keyfiyyətləri onun əsərlərindən gətirilən sitatlar və poeziya nümunələri əsasında dəyərləndirilir.
**Açar sözlər:** məktəb, müstəqillik, mənəviyyat, mərdlik, xalq, azadlıq

**Məqalə tarixçəsi:** göndərilib – 14.05.2024; qəbul edilib – 29.05.2024

# Muhammad Hadi in a new culturological thinking

**Namig Abbasov**
Doctor of Philosophy in Culturology
Institute of Architecture and Art of ANAS
E-mail: namiq_abbasov_70@mail.ru

**Abstract.** The article examines the work of the selfless patriot Muhammad Hadi, who was guided by the ideas of independence of Azerbaijan and freedom of the people, in a new cultural aspect. It is emphasized that the human qualities of the poet do not lag behind his work at all. Such qualities of Muhammad Hadi as knowledge, skills, organization and creative activity in the formula of a cultural person are evaluated from the point of view of cultural analysis. The personal and creative qualities of the poet as a cultured person are based on the examples of poetry quoted from his works.
**Keywords:** school, independence, morality, courage, people, freedom

**Article history:** received – 14.29.2024; accepted − 14.29.2024

## Giriş / *Introduction*

Azərbaycan ədəbi mühitində özünəməxsus yer tutan şairlərimizdən biri də Məhəmməd Hadidir. Şairin ədəbi fəaliyyəti filoloqlar tərəfindən araşdırılmış və bu iş davam etməkdədir. Məhəmməd Hadinin diqqət cəlb edən digər keyfiyyətləri onun şəxsi və yaradıcı fəaliyyətinə kulturoloji baxışı zəruri edir.

Bu baxımdan Məhəmməd Hadi yaradıcılığı yeni kulturoloji təfəkkürdə mədəni insan formulası əsasında təşəkkül tapan dəyərli mədəni

irsimizdən sayıla bilər. Şairin yaradıcılıq sferasında kulturologiya elmində araşdırılan və təsdiqlənən mədəni insan formulunun şərtləri öz əksini tapır..

**Əsas hissə / *Main Part***

Bilik, bacarıq, mütəşəkkillik, mənəviyyat və yaradıcı fəaliyyət formulu əsasında formalaşan mədəni insan obrazı ədibin həyat və yaradıcılığının əsas süjet xəttini təşkil edir. Belə ki, bilik və bacarıqların vacibliyini şerlərində tez-tez səsləndirən şair "Millətin tərəqqisi yalnız məktəblədir, maariflədir" deyirdi. "Məktəb şərqisi", "Maarifə dair", "Maarif olsa zülmü məhv olar, əlbəttə dünyanın" adlı şerlərində məktəb və maarifin millətin dərdinə əlac olacağına əminliyini bildirir:

*Məktəb nə demək? Xadimi-qüdsiyyəti-millət,*
*Məktəb nə demək? Baisi-ülviyyəti-şövkət,*
*Məktəb nə demək? Cilvəgahi-nuri-həqiqət,*
*Məktəb nə demək? Rəhbəri-irşadü-səadət,*
*Övladi-vətən etmək üçün bizdə təali*
*Məktəblər açıb kəsb edəlim elmü kəmali!*
[3, s.20]

Hadiyə görə, milli intibah millətin övladlarına məktəb açmaqdan başlayırdı. Məhəmməd Hadi bilik və bacarıqlarla yanaşı, həmvətənlilərini mütəşəkkil, cəsur və iradəli olmağa səsləyirdi. O, vətənini sevən, tarixinə bağlı, xalqına, millətinə dəyər verən, milli məfkurəni uca tutan bir şair idi. Mövcud siyasi və sosial vəziyyət onu qane etmirdi. O, düşünürdü ki, təmsil etdiyi mədəniyyət, vətən, xalq bu duruma layiq deyil. Belə vəziyyətlərdə içindəki etirazını qələminin gücü ilə belə ifadə edirdi:

*Artıq yetişib hürriyyətin anları, qalxın!*
*Qalxın yeni əsrin yeni insanları, qalxın!*
*Türk torpağı öz övladının cəngini bəklər,*
*İşğalçıların üstünə qalxsın dəyənəklər*! [3]

Rəsmiyyə Rzalı məqaləsində Məhəmməd Hadi haqqında belə yazır:

*"Türk dünyasının böyük ideoloqu Əlibəy Hüseynzadə Əhməd bəy Ağaoğlu, Hüseyin Cavid, Abbas Səhət, Məhəmməd Hadi kimi millətçi ziyalılar təqiblər, təzyiqlər və hədələr altında da olsa, bu mövzunu yaza-yaza, dərinləşdirə-dərinləşdirə, sonda millət problemini qoya bildilər, milli ideologiya yaratdılar. Onlar bunu qeyri-adi təfəkkürləri, varlıqlarında daşıdıqları uca milliyyət duyğusunun fövqəlbəşərliyi hesabına etdilər, xalqı müsəlman ümməti fəlsəfəsindən millət müstəvisinə çıxartdılar. Yaşadığı cəmiyyətdən və millətin çəkdiyi əzabdan usanan Hadi hələ gənc yaşlarında yazırdı:*

*İmzasını qoymuş miləl-övraqi-həyatə,*
*Yox millətimin xətti bu imzalar içində.*

*Yaşadığı həyatı boyu millətinin imzasını imzalar içində görmək üçün bir an dayanmadan savaşdı, üsyankar şeirləri ilə dünyaya bağırdı, səsi ilə cəhalətin qara pərdələrini yırtıb dağıtdı bu romantik şair"* [6].

Məhəmməd Hadinin yaradıcılığında bilik, bacarıq, mütəşəkkilliklə yanaşı, mənəviyyat məsələləri də əsas yer tutur. Şairin tərbiyə, əxlaq, cəmiyyətin inkişafı və təkamül barədəki fikirlərinin müəyyən qismi "*Və innəkə li-əlaxəlqi-əzim*" adlı məqaləsində öz əksini tapmışdır. Əsərlərində əxlaq məsələlərinə geniş yer ayıran, əxlaqa bir elm kimi yanaşaraq onun predmetini müəyyənləşdirməyə çalışan müəllifə görə, əxlaq istər Allaha, istərsə də ətrafdakı başqa adamlara münasibətlərini tənzimləmək üçün insanların hüquq və vəzifələrinin ifadəçisidir.

İnsanların birgəyaşayış qaydalarına əməl etməməsi, yaxşı və pis əməllərin seçimində bədənsəl və ruhsal güclərin ortasını tuta bilməməsi səbəbində görən Məhəmməd Hadi sual edir: İnsan gülşəni məzarıstana döndərməkdənsə, məzarıstanı gülşənə döndərə bilməzmi? Cavabı aydındır: - Bilər, bunun üçün o, yatmış vicdanını oyatmalı və onun səsinə qulaq asmalıdır. Beləliklə, şair şerlərində düşüncə (ruhsal) gücünü oyandırmaqla cəmiyyətdə firavan və hüzur içində yaşamağı vurğulamağa çalışır.

*Neçin guş etməyirsən, ey bəşər, fərmani-vicdanı,*
*Nasıl ləzzətlənirsən, söylə qan tökməkdən, ey fani?*
*Bu xislətlə, əmin ol, dilbəri-amalı görməzsən,*
*Keçər ömrün qaranlıq, pərtövi-iqbalı görməzsən.* [3]

Bu, artıq məsləhət yox, çağırışdır: İnsanlıq uğrunda, işıqlı arzular, sülh və əmin-amanlıq uğrunda mübarizəyə çağırış.

Ümumiyyətlə, Məhəmməd Hadi yaradıcılığında insanın mənəvi-psixoloji və kulturoloji (mədəniləşmə) problemləri əsas mövzu kimi qabardılır. "İsmət, yaxud əfif olan zatların xəsaili" şeiri Məhəmməd Hadinin əsl insan, onun öz məsləkinə sədaqəti, mərdlik və mədəniyyəti haqqında qənaətlərinin poetik kodeksidir. Doqquz bəndlik bu şeirin hər bəndində lirik qəhrəman yaşadığı çox mürəkkəb, məşəqqətli zamanın meydana atdığı ən mürəkkəb sınaqlara məruz qalır və şair bu qəhrəmanı həmin sınaqlardan başucalığı ilə, şərəf və ləyaqətlə çıxmağa çağırır. Bu bəndləri misra-misra oxuyub axıra çıxdıqca, biz də Hadinin lirik qəhrəmanı ilə birlikdə sanki o ağır sınaqlara məruz qalır, həyatın labirintlərindən keçib onunla bir ağızdan təkrar edirik: öz insanlıq vüqarını, heysiyyətini, məslək və ideallarını yüksək qiymətləndirən insan, özəlliklə qeyrətli ziyalı heç vaxt var-dövlət, şan-şöhrət üçün əqidəsindən dönməz, necə ki, düşüncə tarixində vurğulanan hikmət sahibinin dünya malından – yarar və həzzdən uzaq olması nümunəsi kimi.

Antik dövrün böyük düşüncə sahiblərindən olan Platona görə, insanlarda üç yaşam tərzi vardır: Həzz yaşamı, şərəf, şöhrət yaşamı (vəzifəpərəstlik nəzərdə tutulur), hikmət yaşamı [4]. Aristotel, müəlliminin fikirlərini davam etdirərək Yunanstanda keçirilən olimpiadalara gələn insanları üç qismə ayırır: həzz üçün gələnlər, yarar, mənfəət üçün gələnlər və bütövlükdə olanları dəyərləndirmək, nəzər yetirmək, tamaşa etmək üçün gələnlər [1]. Sonuncular bioteorikos – nəzəriyyəçilər, hikməti sevənlər (filosoflar) idilər. Məhəmməd Hadi sonunculardan idi. O, hikmət yaşamını seçərək, ömrünü həqiqət aracılığına həsr edən bir fədai idi. Xarakterində tacirlik əlamətləri olmayan, iki dəfə dükan açsa da, iflasa uğrayan Məhəmməd Hadi özünü xarakterinə uyğun bir sahədə sınamaq qərarına gəlmiş və bəzi maarifpərvərlərin müavinəti ilə Kürdəmirdə yaşayan şamaxılı Ağa Əfəndi ilə birlikdə bir məktəb açıb tədrisə başlamışdır.

Hadi bir şerində vəsiyyət edir ki, onun kəfəni üçün qara parçadan istifadə olunsun; çünki, bu rəng şairin qara bəxtinin rəmzidir… Lakin bu qara bəxtin, qara rəmzin özünün də axırında şair bir işıq, bir aydınlıq görür, öz gələcəyini arxa planda qoyaraq, millətinin taleyini həmin işıqla bağlayır:

*Bəxtim kimi olsun kəfənim, yəni siyəhnak.*
*Millət işıq olsun, məni udsun bu siyəh xak,*
*Ancaq dilərəm qövmüm ola sahibi idrak.*
*İdrakı olanlar məni sonra qanacaqdır,*
*Bir qövmi dirildən də cahanda qanacaqdır.*

[3]

Bu misralar şairin təsəvvüf, sufi təfəkkürünün təsirlərini ifadə edir. Təsəvvüfdə "qara ölüm" anlayışı mövcuddur. Ümumiyyətlə, təsəvvüfdə dörd cür ölüm təsvir edilir.

Ağ ölüm – yeməkdən uzaq durmaq,

Yaşıl ölüm – geyim-kecimdən bər-bəzəkdən uzaq durmaq,

Qırmızı ölüm isə – şəhvətdən uzaq durmağı bildirirdi.

Qara ölüm xalqın cəzasına qatlanmaqdır [5].

Bu, bir peyğəmbər əxlaqıdır. Məhəmməd Peyğəmbər də Mağarada nurlananda Cəbrayıla deyə bilərdi: Bəli, həqiqəti öyrəndim. Bu mənə bəsdir. Lakin O, xalqa doğru yönəldi və xalqını da aydınlığa çıxarmaq üçün mücadiləyə başladı. Xalq içində xalqla bərabər oldu. Məhəmməd Hadi ticarəti – yarar və həzzi buraxıb hikməti seçdi. Həqiqəti seçdi və xalqına tərəf yönəldi. Xalqla bərabər oldu. Tanınmış türk sosioloqu Ziya Gögalpın məşhur ifadəsi – Xalqa doğru! – bu baxımdan dəyərlidir. Ziya Gögalp da eyni müraciəti ona görə edirdi ki, kültürlə mədəniyyət arasında bağlar qırılmasın. Ziyalılar, aydınlar xalqa elmi, nəzəri bilikləri aparmaqla, onlardan (xalqdan) kültürü, adət və ənənələri özlərində əxz etsinlər [2, s.50]. Hadi xalqının bir parlayan zərrəsi kimi daima xalqın içərisində oldu. Xalqın iztirablarıyla yaşadı, xalqın səsinə səs verdi, mücadiləyə səslədi və bu yolda şəhid oldu.

**Nəticə / *Conclusion***

Beləliklə, Məhəmməd Hadinin insani keyfiyyətləri heç də yaradıcılığından geri qalmır. Böyük sosioloq Ziya Gögalpın təsvir etdiyi "*Hər bir insan təvazökar və sərbəst (səmimi) əxlaqa, dərin və ifrat dərəcədə olmayan dinə bağlılığına, bir sözlə, durumu ilə yetinməsi (qənaətbəxş olması) və taleyinə boyun əyməlisə (təslimçiliyilə) birlikdə daim bir nikbinliyi və ülküsü (məfkurəsi) olan yoxsul, lakin xoşbəxt yaşayışına heyran olmasına çalışmalıdır*" [2, s.28] insan tanımını düşünmədən Məhəmməd Hadiyə şamil etmək olar. Unudulmaz ədibin həyat və yaradıcılığı və insani keyfiyyətləri Ziya Gögalpın təsvir etdiyi insanla tamamilə uzlaşır. Təvazökar və səmimi əxlaqi keyfiyyətləri, şükranlığıyla birlikdə, içində fırtınalar çağlayan məfkurə və idealına ulaşmağa can atan Hadi yoxsul olsa da, xoşbəxt yaşayışını arzulayan bir mütəfəkkir idi. Çünki ona layiq idi. Alman filosofu Nitsşenin "*niyə yaşadığını bilirsənsə, necə yaşamağının əhəmiyyəti yoxdur*", – kəlamını da Hadiyə şamil etmək olar. Hadi xalqı, milləti üşün yaşayırdı, yaradırdı. Xalqı kimi maddi çırpıntılarda üzülsə də, içində bir nur, işıq, gələcəyə inam və ümid var idi. Bu ümid ulu babalarımızın şərəfli keşmişinə dayanaraq gələcəyə inam hissini sönməyə qoymurdu. Hadi bu inamla yaşadı, yandı, onun nurlu sətirləri öz şöləsini itirmədi, sonrakı nəsillər üçün bir mayak olaraq bugünkü müstəqil Azərbaycan Respublikasının mövcudluğuna gətirib çıxartdı. Fədakar şairimiz bu günü görməsə də, onun soydaşları hazırda müstəqil Azərbaycanın bəxtiyar övladları kimi keşmişinə hörmət, gələcəyə ümidlə millətinin xəttini imzalar içində yazmaqdadır.

**Ədəbiyyat / *References***


1. Aristotel. "Siyasət. Böyük etika". – Bakı: XXI-Yeni Nəşrlər Evi, 2006. – 432 s
2. Göyalp, Z. Türkçülüyün əsasları. – Bakı: Maarif nəşriyyatı, 1991. – 175 s.
3. Məhəmməd Hadi. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005. – 464 s.
4. Платон. Тимей. http://www.philosophiy.ru/library/plato/timey.html
5. https://www.google.com/search? Dücane Gündioğlu
6. http://anl.az/down/meqale/azerbaycan/2010/iyul/128140.htm Rəsmiyyə Rzalı Azərbaycan.-2010.-21 iyul.


## Мухаммед Хади в новом культурологическом мышлении


**Намик Аббасов**
Доктор философии по культурологии
Институт архитектуры и искусства НАНА
E-mail: namiq_abbasov_70@mail.ru



**Резюме.** В статье в новом культурологическом аспекте рассматривается творчество самоотверженного патриота Мухаммеда Хади, руководствовавшегося идеями независимости Азербайджана и свободы народа. Подчеркивается, что человеческие качества поэта вовсе не отстают от его творчества. Такие качества Мухаммеда Хади, как знание, навыки, организованность и творческая деятельность в формуле культурного человека, оцениваются с точки зрения культурологического анализа. Личные и творческие качества поэта как культурного человека основаны на примерах поэзии, цитируемых из его произведений.



**Ключевые слова:** школа, независимость, нравственность, мужество, народ, свобода